Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

NATALYA DADAŞOVA

# CƏLAL ABBASOV

Şərq Qərb East West BAKI 2014
"Şərq-Qərb" Nəşriyyat Evi

Elmi redaktor: Həcər Babayeva,
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi,
professor

Natalya Dadaşova. Cəlal Abbasov
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 32 səh.

ISBN 978-9952-498-44-8

Şərq Qərb East West BAKI 2014
www.eastwest.az
www.fb.com/eastwest.az
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2014



*Dünya inanılmaz sürətlə dəyişməkdədir. Möhtəşəm texniki inqilab, kainatda yeni-yeni cəsarətli ideyaların yaranmasına səbəb olan fantastik sürətli yerdəyişmələr – bütün bunlar insanların ağlını, qəlbini təlatümə gətirərək, incəsənətdə yeni mövzu və obrazların ümumiləşdirilməsi üçün çoxşaxəli yaradıcılıq axtarışlarının, üslub cərəyanlarının əmələ gəlməsinə gətirib çıxarır. Sadalanan fikirlərin təsdiqi kimi müasir dövrümüzün bəstəkarlıq yaradıcılığını nümunə göstərmək olar.*

*Sarsılmaz dayaq və cəsarətli novator ideyaların möcüzəli qovuşması yeni nəsil sənətkarlıq yaradıcılığının əsasını təşkil edir. Bu nəsil sənətkarlarının sırasına istedadlı Azərbaycan bəstəkarı, pedaqoq, etnomusiqişünas, Azərbaycanın Əməkdar incəsənət xadimi, BMT mükafatı laureatı Cəlal Əşrəf oğlu Abbasov da daxildir.*

Geniş erudisiya, müasir dünya incəsənətində baş verən proseslərə qarşı daimi maraq və diqqətlə, milli ənənələrə hörmətlə yanaşma – bu xüsusiyyətlər bəstəkarın yaradıcı simasına xas olaraq, onun bədii kredosunu formalaşdırmışdır.

35 illik yaradıcılıq təcrübəsinə malik olan Cəlal Abbasovun çoxjanrlı əsərləri Azərbaycanın müasir musiqi mədəniyyətində layiqli yer tutaraq, onu dünyanın müxtəlif ölkələrində – ABŞ-da, Almaniyada, Avstriyada, Cənubi Koreyada, İndoneziyada, Özbəkistanda, Rusiyada, Gürcüstanda, Ukraynada uğurla təmsil edir. Bu istedadlı bəstəkarın əsərlərini "Le Quator Gaudi" (Fransa), "Seattle Chamber Players" (ABŞ), "Ensemble Reconsil Wien "(Avstriya), "Студия Новой музыки" və "Ансамбль Марка Пекарского" (Rusiya), Ukrayna Milli simfonik orkestri, eləcə də Azərbaycanın Dövlət kollektivləri və solistləri ifa edirlər. Parlaq fərdi üslub, əks etdirən yaradıcılıq ideyalarının dərinliyi və aktuallığı, bəstəkarlıq texnikası sahəsində milli dəyərlərin müasir nailiyyətlərlə incə şəkildə "hörülməsi" – Cəlal Abbasov sənətinə xüsusi maraq doğurur. Təsadüfi deyildir ki, onun əsərləri dəfələrlə müxtəlif respublika müsabiqələrinin qalibi olmuşdur: Xalq mahnılarının xor üçün aranjimanı müsabiqəsi (1982), S.Yeseninin 100 illiyinə həsr olunmuş müsabiqə (1995), Vətənpərvər mahnı müsabiqəsi (2000).

Bəstəkar, Azərbaycan Gənclər İttifaqı mükafatı laureatı (1990), respublikamızda yeganə BMT mükafatı laureatıdır (1998). 2007-ci ildə musiqi sənətinin inkişafı sahəsində xidmətlərinə görə C.Abbasov Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Qara Qarayevin tələbəsi, öz sənətinə hədsiz dərəcədə sadiq bəstəkar C.Abbasov, eyni zamanda öz vaxtını, enerjisini, səbrini musiqi tədrisinə həsr edən gözəl pedaqoqdur. Uzun illər musiqinin orta təhsil pilləsində (A.Zeynallı adına Bakı Musiqi kolleci, Bülbül adına orta ixtisas musiqi məktəbi, G.Şaroyev adına 35 nömrəli 11 illik musiqi məktəbi) çalışan C.Abbasov, hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və Milli Konservatoriyanın dosentidir; orada bəstəkarlıq, alətşünaslıq, orkestrləşdirmə, partitura oxunuşu, polifoniya, Azərbaycan xalq musiqisinin əsasları üzrə kurslar aparır. Məhsuldar pedaqoji fəaliyyətinə görə o, Bakı şəhər Mədəniyyət Şöbəsinin "Yüksək səviyyəli şagird hazırlığına görə" Fəxri Fərmanı ilə təltif edilmişdir (2000). Onun tələbələri sırasında fəxri Respublika mükafatlarına layiq görülənləri də var.

1981-ci ildən C.Abbasov SSRİ-nin Bəstəkarlar İttifaqının, 1990-2007-ci illərdə Azərbaycanın Yaradıcılıq Birliyi İdarə Heyətinin üzvüdür. 2012-ci ildə isə Azərbaycan bəstəkarlarının IX qurultayında Bəstəkarlar İttifaqının katibi seçilmişdir.



C.Abbasov 1957-ci il mayın 8-də Bakıda görkəmli Azərbaycan bəstəkarı, gözəl pedaqoq, Azərbaycanın Xalq artisti, professor Əşrəf Abbasovun ailəsində dünyaya göz açmışdır. Bu bir xoşbəxtlikdir ki, Cəlal atasından nəinki musiqi istedadı, həmçinin zəhmətsevərlik, intizamlılıq, analitik təfəkkürə malik olmaq kimi xüsusiyyətləri də əxz etmişdir (məlumdur ki, Ə.Abbasov Moskvada dissertasiya müdafiə etmiş ilk sənətşünaslıq namizədi elmi dərəcəsini almış Azərbaycan musiqiçisidir). Eyni zamanda Abbasovların evində olan yaradıcı atmosfer, görkəmli bəstəkarların, musiqiçilərin, dirijorların bu evi tez-tez ziyarət etmələri, daim səslənən musiqi, sənət problemləri barədə aparılan həyəcanlı və maraq dolu diskussiyalar, evin yeganə oğlunun gələcək taleyinin müəyyənləşməsinə təsir göstərməyə bilməzdi.

1964-1975-ci illərdə Cəlal, Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil almış, gözəl pedaqoq Köykəb xanım Səfərəliyevadan fortepiano ifaçılığı sənətinin sirlərini öyrənərək, tez-tez məktəbin konsertlərində çıxış etmişdir. Bu barədə bəstəkar yazır: “Mən həmişə daha çox şey öyrənmək istəyirdim (bu həvəs indi də məni tərk etməmişdir). Bədii və elmi kitablarin qiraəti, musiqini dinləməyim, partituralarla tanışlıq – hamısı yaradıcılıq prosesinin sirlərinə daha dərindən bələd olmaq meylinə tabe idi. Məhz bu həvəs mənim 9-cu sinifdə

"Bülbül"də oxuyan şagirdlərin ixtisas seçimi zamanı musiqişünaslığı seçməyimə səbəb oldu".

1975-ci ildə məktəbi bitirən C.Abbasov Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası) tarix-nəzəriyyə fakültəsinə daxil olur. Burada o, əfsanəvi pedaqoqlar İ.V.Abezqauz, D.X.Danilov, S.F.Şeyn, M.S.İsmayılovdan dərs alır. Eyni zamanda hələ yuxarı siniflərdə oxuyarkən başladığı bəstəkarlıq təcrübələrini davam etdirir. "Bəstəkarlar evi" adlanan binada yaşayan C.Abbasov, həmin binanın 1-ci mərtəbəsində yerləşən "Təranə" musiqi mağazasının xidmətlərindən istifadə edərək, kitabxanasını o zamanlar az miqdarda da olsa, Bakıya gətirilən yeni kitablarla, müasir partituralarla, XX əsr musiqisinin yazıldığı vallarla zənginləşdirirdi. Onu maraqlandıran müasir bəstəkarların – D.Şostakoviç, İ.Stravinski, B.Bartok, A.Şnitke, S.Qubaydulina, E.Denisov, B.Silvestrovun yaradıcılığını öyrəndikcə, müasir bəstəkarlıq texnikasının növlərini və üsullarını: dodekafoniyanı, aleatorikanı, kollajı daha dərindən dərk edirdi.

Bir dəfə özünün silsilə fortepiano pyeslərini, o zamanlar Konservatoriyanın Bəstəkarlıq kafedrasının müdiri vəzifəsində çalışan X.Mirzəzadəyə göstərir. Xəyyam müəllim pyesləri bəyənərək, Cəlala bəstəkarlıqla ciddi məşğul olmağı tövsiyə edir. C.Abbasov nəzəriyyə fakültəsində təhsilini davam etdirərək, eyni zamanda fa-





kültativ şəkildə bəstəkarlıqla məşğul olmaq qərarına gəlir. Fərəc Qarayevin  rəhbərliyi altında bir il ərzində o, fortepiano üçün sonatina, romans, nəfəsli kvintet üçün 5 pyes yazır və imtahan verərək, bəstəkarlıq fakültəsinə keçirilmək hüququ qazanır. Beləliklə, 1977-ci ildə C.Abbasov Qara Qarayevin bəstəkarlıq sinfinə qəbul edilir, taleyin hökmü ilə dahi bəstəkar və pedaqoqun xronoloji cəhətdən sonuncu məzunu olur.

Təhsil illərini xatırlayarkən, C.Abbasov söyləyir: “O zamanlar Qara Əbülfəzoviç Moskvada yaşayırdı, müəyyən müddətə Bakıya gəlirdi. O gələndə məşğələlər həftədə 3-4 dəfə keçirilirdi. Qara Qarayevin dərsləri

hədsiz dərəcədə maraqlı idi, orada çox adam iştirak edirdi. Onun izahatları çoxlu nümunələrlə, incəsənət tarixinə dair şərhlərlə, fəlsəfəyə aid söhbətlərlə müşayiət olunurdu".

C.Abbasovun yaradıcı və təşkilati bacarıqları hələ tələbəlik illərindən üzə çıxmışdır. 1977-1980-ci illərdə, adı çəkilən bəstələrdən əlavə, bəstəkar fortepiano üçün variasiyalar, T.Nurəli və M.Aslanın sözlərinə vokal silsilə, simli kvartet, violino və fortepiano üçün "Uşaq süita"sı, simli orkestr və timpani üçün Passakalya və Alleqro (bəstəkarın Televiziya və Radio fondu üçün ilk əsəri) yazmışdır.

IV kurs tələbəsi üçün o zamanlar ən yaddaqalan hadisə, onun 1979-cu ilin sentyabr ayında keçirilən Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayında iştirakı oldu. Qurultayın afişasına bəstəkarlıq fakültəsi tələbələrinin əsərlərindən ibarət konsert də daxil idi. Bu konsertin proqramındakı Cəlalın violino və fortepiano üçün sonatası gənc bəstəkarın geniş dinləyici auditoriyası qarşısında səslənən ilk əsəri oldu. Sonatanın üç hissəli kompozisiyası seçilmiş janrın özünəməxsusluğunu, emosional təsirin rəngarəngliyini, düşünülmüş ideyanın ciddiliyini, əsərin bütövlükdə və ayrı-ayrı hissələrinin formasının bəstəkar tərəfindən anlaması və yiyələnməsini göstərir.



Artıq tələbəlik illərində yazdığı əsərlərdə bəstəkarın yaradıcılıq şəxsiyyətinin xüsusiyyətləri üzə çıxır: yəqin ki, burada soykökünün Qarabağla bağlılığı ilə əlaqədar, təbiətən musiqi duyumuna malik olmasını, kompozisiya quruluşunun məntiqliyi, milli ünsürlərə özünəməxsus şəkildə müraciət etməsini qeyd etmək yerinə düşər.

Milli dəyərlərimizə müraciət problemi hələ Q.Qarayevin sinfində təhsil aldığı illərdən onun yaradıcılığında kök salmışdır. C.Abbasov xatırlayır: "İlk görüşdən Q.Qarayevin mənə dediyi sözləri ömrüm boyu unutmamışam və hələ də tələbələrimə onu sitat kimi gətirirəm: "Dağlarda yaşayan insan evini daşdan tikir, meşədə ya-

şayan isə, təbii ki, ağacdan. Biz bəstəkarlar da, yaradıcılığımızda bizi əhatə edən xalq musiqimizdən bacarıqla istifadə etməliyik”. Bu fikirlərin əsasında da, illər keçdikcə bəstəkarın dəqiq mövqeyi müəyyənləşmişdir: millilik onun fərdi üslubu vasitəsilə müasir təfəkkür və qavrayış prizmasından yaradıcılığına hopmuşdur.

Ü.Hacıbəyli adına fərqli təqaüdlə təhsil alan C.Abbasov Konservatoriyanın ictimai həyatında da fəal iştirak etmişdir. Liderlik xüsusiyyətinə malik olan Cəlal müxtəlif yaradıcı tədbirlərin təşkilatçısı kimi də fəallıq göstərmişdir. Onun təşəbbüsü ilə Konservatoriyada Tələbə Bəstəkarlar Klubu təşkil edilir: bu klubun əsas məqsədi – müasir bəstəkarların yaradıcılığı ilə tanışlıq, yeni texnika və üslubların öyrənilməsi idi. Klubun fəaliyyətinin mühüm istiqamətlərindən biri də Azərbaycan bəstəkarları – sənət ustadları ilə təşkil edilən maraqlı tədbirlər idi: Aqşin Əlizadə, Fərəc Qarayev, Firəngiz Əlizadə, İsmayıl Hacıbəyov, Afaq Cəfərova ilə görüşlər keçirirdi. Klubun məclisləri yaradıcı ünsiyyət atmosferində keçirdi: burada müasir klassik (Penderetski, Lütoslavski, Berio, Ayvz, Keyc, Şeffer), həmçinin caz musiqisi səslənir, maraqlı, çox vaxt qızğın diskussiyalar aparılırdı.

Konservatoriyada müasir musiqi sənətinin əsaslarını öyrənən Cəlal, eyni zamanda əzmlə Azərbaycan xalq musiqisini də dərindən mənimsəməyə çalışırdı. Bu işdə

Respublikamızın müxtəlif guşələrinə xalq musiqisi nümunələrini toplamaq məqsədilə təşkil edilmiş tələbə ekspedisiyalarının da rolu əvəzedilməz idi.

1980-ci ildə C.Abbasov Konservatoriyanı əla qiymətlərlə bitirir. Onun diplom işi – tələbəlik dövrünü yekunlaşdıran və bəstəkarın qarşısında tam müstəqil yaradıcılığın sonsuz üfüqlərini açan – kamera orkestri üçün 1 saylı simfoniya oldu. Üç hissəli simfoniyanın bütün hissələri dramaturji inkişafın məntiqi dəqiqliyi ilə birləşmişdir ki, bu da incə intonasiya əlaqələrinin mövcudluğunda özünü büruzə verir. Burada milli mənşə daha aşkar və aydın şəkildə özünü göstərir, xüsusən 2-ci hissədəki muğam uslubunda sərbəst improvizə vasitəsilə. “Simfoniyanın musiqisi dinləyici qarşısında gənc bəstəkarın hislər və düşüncələr dünyasını, incə, lakin daxilən gərgin olan, həyat, insan, onun mənəvi qüdrəti, gözəlliyi barədə dərin düşüncələr aləmini açır. Başqa sözlə, onu əhatə edən gerçəkliyi bütün təzahürü ilə şövqlə dərk etmək istəyən və öz şəxsi qavrayış prizmasından keçirərək musiqisində canlandırmaq həvəsində olan insanın dünyasını”. (N.Qasımova. Yaradıcılıq meridianlarında. B., “Gənclik”, 1984, səh. 71).

Simfoniya 1981-ci ildə Bakıda keçirilən Qafqazyanı ölkələrin gənc bəstəkarlarının II festivalında Azərbaycan Dövlət Kamera Orkestri tərəfindən (dirijor N.Rzayev) müvəffəqiyyətlə ifa olunmuşdur. Bir ildən sonra isə

simfoniya həmin ifada Moskvada keçirilən Azərbaycan bəstəkarlarının kamera musiqisi festivalında da səslənmişdir.

Simfoniya kimi mürəkkəb bir janrla debüt etmək müəllifin ciddi yaradıcılıq yolunu seçməsinin etirafı oldu. Artıq yeni perspektivli bəstəkarlıq istedadının kəşf olunmasına şübhə yox idi. 1981-ci ildə T.Xrennikovun rəhbərliyi altında SSRİ Bəstəkarlar İttifaqı katibliliyinin qərarı ilə C.Abbasov yekdilliklə SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqının üzvü seçilir.

Bununla yanaşı, yaradıcılıq ehtirası ilə zəngin olan, təcrübə və bilik əldə etmiş Cəlal yeni bir təkmilləşmə mərhələsi keçmək qərarına gəlir. 1981-84-cü illərdə F.Qarayevin rəhbərliyi altında Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq kafedrasında assisentura təcrübəsi keçir. Minnətdarlıq və səmimiliklə o, görkəmli musiqiçi və qeyri-adi şəxsiyyətlə ünsiyyət illərini xatırlayır: "Mən, Fərəc müəllimə ona görə minnətdaram ki, o heç vaxt özünün yaradıcılıq və pedaqoji nüfuzundan sui-istifadə etməz, həmişə tələbələrinin maraqlı təşəbbüslərinə dəstək olardı". Fərəc Qarayev də öz növbəsində tələbəsini yüksək dəyərləndirirdi. Bir neçə ildən sonra onun müəllimlik fəaliyyətini qiymətləndirən F.Qarayev deyəcəkdi: "Orta təhsil sistemində bəstəkarlıq fakültəsinə qəbul üçün şagirdləri layiqincə hazırlayan Cəlal Abbasovdan başqa bir müəllim yoxdur". Artıq

bu illərdə bəstəkar seçdiyi yaradıcılıq yolunu və üslubunu, hansı janra üstünlük verəcəyini yəqin etmişdi: janr müxtəlifliyi içərisində ona nisbətən yaxın olanın kamera, vokal (xor və solo), orkestr musiqisi olduğunu müəyyənləşdirmişdi. Yaradıcılığının həmin dövrü üçün səciyyəvi əsərlərdən biri üç alət üçün "Meditasiyalar" (1981) – kiçik, lakin musiqi anlamına görə həcmli, təzadlı bölmələrin sərbəst şəkildə növbələşməsi üzərində qurulmuşdur. Ona üç əhatəli monoloq daxildir: fleytanın sakit nəqledici avazı, violonçelin xarakterik milli ifadələrlə zəngin, həyəcanlı harayı ilə əvəz olunaraq, fortepianonun gərgin statikasına keçir. Sonuncu bölmədə birləşərək, onlar səslənməni kulminasiya zirvəsinə çatdırıb, qəflətən susurlar. Uzun bir pauzadan sonra yenidən başlanğıc intonasiyalar olduqca qısa şəkildə səslənib, tədricən "sönürlər".

"Meditasiyalar" Moskva və Leninqrad, Pribaltika və Zaqafqaziya respublikalarının, gənc bəstəkarlarının musiqisi festivalının (Tbilisi, 1982) proqramına daxil olunub, ilk dəfə olaraq, əsər Ə.İskəndərov (fleyta), E.İskəndərov (violonçel) və V.Matyuşkin (fortepiano) tərkibində trionun ifasında səslənmişdir. Gələcəkdə "Meditasiyalar" "Kamera ansamblları üçün pyeslər" məcmuəsinə daxil edilib "Sovetski kompozitor" (Moskva, 1988) nəşriyyatında çap edilir.

“Meditasiyalar”a üslubca yaxin iki fleyta üçün bəstələnmiş “Paradiqma” (1981) və həmçinin Zaqafqaziya gənc bəstəkarlarının V festivalında (Bakı, 1985) bəstəkarın yaradıcılığını təmsil etmiş solo violino üçün sonatadır (1984). Sonuncu əsər sonra “Sovet bəstəkarlarının solo violino üçün yeni əsərləri” toplusunda dərc edilmişdir (“Sovetski kompozitor”, Moskva, 1989).

Qara Qarayevin xatirəsinə həsr edilmiş orqan üçün “Postlüdiya” (1983) dərin bir hüznlə bəstələnmişdir. “Mən Qara müəllimin – mənim pərəstişgahım, ilahim, idealımın vəfatını çox ağır keçirdim, – Cəlal söyləyir. – Müəllimimin həyatdan köçməsinin birinci ildönümünə mən “Postlüdiyanı” – mənim üçün çox önəmli olan əsəri bəstələdim. Bu, sanki ilahidən mənə diktə edilən bir əsər idi. Heç şübhəm yox idi: necə lazımdırsa, elə də yazırdım. Onda mənim 26 yaşım var idi”. “Postlüdiya” ümumxalq məhəbbəti qazandı və Azərbaycan, eləcə də xarici orqançalanların repertuarına daxil oldu.

Solo alətlər üçün trilogiya: solo kontrabas üçün “Münacat – I” (1993), solo viola üçün “Münacat – II” (1994), solo marimba üçün “Münacat – III” (1998) bəstəkarın orijinal düşüncə tərzinin bəhrəsidir. “Münacat – I” bəstəkarın yaradıcılığını keçmiş sovet respublikalarından yeganə nümunə kimi “3-cü minilliyin musiqisi” devizi altında keçirilən Asiya bəstəkarları Liqasının XXII Festivalında təmsil etmişdir (Cənubi Koreya,

2002). “Münacat – III” ilk dəfə 1999-cu ildə İndoneziyada müvəffəqiyyətlə səslənmişdir.

Gələcəkdə yaradıcılığında geniş yer tutacaq xor janrında C.Abbasov özünü 80-ci illərin əvvəlində sınamışdır: o zaman “Azərbaycan” odası (sözləri: Ə.Cəmilindir), “Bahar nəğməsi” (sözləri: A.Şaiqindir), 3 uşaq xoru (sözləri: M.Namazındır) ərsəyə gəlmişdir. Müxtəlif xor bəstələrinə müraciət etməsinin səbəbi isə bəstəkarı maraqlandıran poeziya nümunələri idi. Bəstəkarın dediyindən: “Azərbaycan, türk poeziyası həmişə mənim diqqət mərkəzimdə olub və bu da yaradıcılığımda öz əksini tapmışdır. Məsələn, qədim Azərbaycan mətnlərinin əsasında mənim ilk “Həyat oxumaları” adlı kantatam yazılmışdır. Qədim türk yazıları əsasında kontralto və zərb alətləri üçün “Gültəkin yuğu”, Y.Əmrənin sözlərinə – “Ritual” vokal-xoreoqrafik səhnəsi. “Mərdlik” kantatası tariximizi əks etdirir – I hissə qəhrəmanlıq bayatıları, II hissə “Kitabi-Dədə Qorqud”dan, III hissə isə “Koroğlu” eposundan seçilmiş parçalar əsasında qurulub”.

“Həyat oxumaları” adlı I saylı kantata royal intermediyaları ilə növbələşən a cappella qarışıq xoru üçün yazılmışdır (1983). O, təbii ünsürlərə – küləyə, günəşə, yağışa çağırışı əks etdirən səciyyəvi adlı dörd xordan ibarətdir. Bu kantata ilk dəfə 1984-cü ildə Azərbaycan Bəstəkarlarının VI qurultayında Azərbaycan Xor Cəmiyyəti Kamera Xorunun ifasında (dirijor L.Atakişiyeva) səslənmişdir.

“Həyat oxumaların”da təcəssüm edilmiş bədii quruluş öz davamını qarışıq xor, hoboy və zərb alətləri üçün xalq mətnlərinə yazılmış “Bahar mərasimi” kantatasında (1986) tapmışdır. Buradakı 10 səhnədə müəllif Novruz bayramının təkrar olunmaz özünəməxsusluğunu və zəngin ənənələrini əks etdirmişdir. Uzun zaman gizli qadağaya məruz qalmış bu gözəl milli bayramımızın Azərbaycan bəstəkarlıq sənətində möhtəşəm formada təcəssümü məhz C.Abbasovun adı ilə bağlıdır. İlk dəfə “Bahar mərasimi”ni 1989-cu ildə Bakıda keçirilən “Üzü zirvəyə” festivalında E.Kərimovanın rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası ifa etmişdir.

1990-cı ildə isə bu əsər bəstəkarın III simfoniyası ilə birgə Respublika Gənclər İttifaqı Mükafatına layiq görülmüşdür. Uşaqlar üçün yazılmış “Şən bahar” operası (1997) folklor personajları ilə zəngin olan oynaq tamaşa – milli ayinlərlə baglı “üçlüyün” (triadanın) yekunu oldu.

Müvəffəqiyyətlərdən ruhlanan bəstəkar sonrakı illərdə daha bir neçə kantata – müşayiətsiz xor üçün “Mərdlik” (1992), qiraətçi, xanəndə və qarışıq xor üçün “Rübailər” (1994), müşayiətlə uşaq xoru üçün “Düzgülər” (1996), həmçinin “Lacrimosa”, “Cantus lugubris”, “Le Revenant” kompozisiyalarını ərsəyə gətirir.

Musiqi alətlərinin ən məlahətlisi – insan səsi daim bəstəkarın diqqətini cəlb etməkdədir. Burada Azərbaycan şairlərinin sözlərinə iki vokal silsilə, Vahid və türk-

mən ədibi Məhdumqulunun mətnlərinə monoloqlar, Nəsimi "Qəzəllər"i, S.Yeseninin şeirlərinə iki romans və b. adlarını çəkmək olar.

Bəstəkarın öz vokal əsərləri üçün seçdiyi mətnlərin müəllifləri də diqqəti cəlb edir. Böyük Şərq şairləri Füzuli, Nəsimi, Vaqifin yaradıcılığı və müasir Azərbaycan poeziyası – B.Vahabzadə, M.Aslan, R.Heydər, R.Qaraca ilə yanaşı, o, müxtəlif dövr və xalqların görkəmli şairləri: Horatsi Flakk, Şarl Bodler, Sergey Yesenin, Yunus Əmrənin əsərlərinə müraciət etmişdir. Bədii qiraətə böyük məhəbbətin nəticəsi olaraq zəngin erudisiya, dünya mədəni irsinin dərketməsinə aludəlik, onun milli zəminə assimilyasiyası – C.Abbasovun yaradıcılıq təbiətinin zəruri xüsusiyyətlərindəndir.

C.Abbasov yaradıcılığının digər mühüm sahəsini orkestr musiqisi təşkil edir. O, bir tərəfdən sırf instrumental musiqiyə mənsub olan nümunələrin, həm də "proqramlı" musiqinin xüsusiyyətlərini özündə cəmləşdirən 4 simfoniyanın müəllifidir. Birinci qrupa I (1980) və II (1984) simfoniyalar, digər qrupa – III "Sülhün səsi" (1985) və IV "Səni bir daha görə bilsəydim..." (1997) simfoniyaları aiddir. Sonunculara simfonik orkestr üçün bəstələnmiş "Where are you, Ulysses?" ("Sən haradasan, Uliss?", 1997/2008) əsərini də daxil etmək olar.

C.Abbasovun simfoniyaları, onun nəslinin bir sıra digər təmsilçilərinin əsərləri kimi, ənənəvi klassik simfoniya

kanonlarından uzaqdır. "Böyük simfoniya"nın xarakterik xüsusiyyətlərindən azad olaraq, onlar sərbəst təfsir olunmuş geniş kompozisiyalar təşkil edirlər. Bəstəkarın mülahizələrindən biri olduqca səciyyəvidir: "Məni əhatə olunduğumuz dünyanın bir çox problemləri düşündürür: ilk növbədə, müasirimin gərgin daxili aləmi, onun həyatı, mübarizəsi, səyləri, axtarışları. "Olum, ya ölüm?" – bu fəlsəfi sualın nöqteyi-nəzərindən  müasirliyin bütün qlobal mövzularını dərk edirəm..."

C.Abbasovun simfoniyalarının musiqi dili bəstəkarlıq texnikasının hər hansı bir növünə kortəbii riayət etməkdən uzaqdır. O, orkestr musiqisində müxtəlif üslub qatlarının müqayisə edilməsinə əl ataraq, öz bədii təfəkkürünün gücü ilə onları vahid birliyə gətirir. Bu yolda da bəstəkarın bir çox uğurları olmuşdur. Məsələn, onun çoxmənalı "If I could see again..." ("Səni bir daha görə bilsəydim...") sərlövhəli IV simfoniyası BMT-nin İnsan Hüquqları Haqqında Ümumi Deklarasiyasının 50 illiyi münasibətilə keçirdiyi müsabiqədə müəllifə BMT mükafatı laureatı adını qazandırmışdır. "Bu əsərdə ağrılı-acılı hisslərimi – əcdadlarımın  Vətəni Şuşanın taleyini, mənə əziz olan insanların həyatdan köçməsini əks etdirməyə çalışmışam.  Lakin simfoniyanın məzmunu daha genişdir – yəni bu həm də arzu və ümidlə dolu gələcəyə bir baxışdır", – deyə müəllif öz fikirlərini izah edir.

Daim arayıb axtaran şüuru, geniş erudisiyası, tədqiqatçılıq istedadı – yaradıcı şəxsiyyəti səciyyələndirən bu kimi cəhətləri C.Abbasovun elmi fəaliyyətində də özünü göstərir. Assisenturanı bitirdikdən sonra o bir müddət AMEA Memarlıq və İncəsənət İnstitutunun "Musiqi folkloru" şöbəsində elmi işçi vəzifəsində işləyir. Həmin vaxt ərzində, konservatoriya illərində olduğu kimi o, qiymətli folklor materiallarının toplanması və nota salınması məqsədilə təşkil olunmuş ekspedisiyalarda iştirak edir. Bu işdə əsas diqqət mərasim folkloruna və instrumental qəhrəmanlıq musiqisinin öyrənilməsi problemlərinə yönəldilmişdir. Toplanmış materiallar, peşəkarcasına işlənmiş not yazısında, elmi məqalə və mühazirələrdə və bir sıra yuxarıda adı çəkilən musiqi əsərlərində öz əksini tapmışdır.

C.Abbasovun etirafına görə, onun həyatı qırılmaz tellərlə yaradıcılıqla bağlıdır: "Mən əsərlərimin siyahısını tərtib edəndə düşündüm ki, az iş görülməyib. Zaman keçdi və ona bir daha nəzər yetirdim: "Kifayət qədərdir, lakin hələ yazmadıqlarım da çoxdur..." Ancaq bu da yaxşıdır ki, hələ öz təcəssümünü tapmayan düşüncələrim, ideyalarım var. Deməli, həyat davam edir və bu həyatda hər zaman yaradıcılığa yer olmalıdır, hər halda mən buna ümid edirəm..."

## *Bəstəkar Cəlal Abbasovun əsərlərinin siyahısı*

**1976**

Sonatina (piano üçün, üç hissəli)

**1977**

5 pyes (nəfəs alətləri kvinteti üçün: fleyta, hoboy, klarnet, valtorna, faqot). Yeni red. "5x5" (1995). / Bakı, 1995, Fransız və Azərbaycan əsərlərindən ibarət konsert, Kamera və orqan musiqisi salonu, ifaçılar: BMA tələbələrin kvinteti. // Nəşr: "Muzik Fabrik" (Fransa), partitura və partiyalar.

"Küsmüşəm" romansı (Vaqifin sözlərinə) 1978 Sonata (violino və piano üçün) / Bakı, 1979, Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayı, ifaçılar: S.Qəniyev (violino), A.Ələsgərov (piano). Variasiyalar (piano üçün).

**1979**

"Passacaglia & Allegro" (simli orkestr və timpani üçün). / Bakı, 1980, AzTV-nin simfonik orkestri, dirijor – R. Məlikaslanov. (səsyazma)

1 saylı simli kvartet. / Fransa, 2004, ifaçılar: "Le Quator Gaudi". // Bakı, 2005, R.Behbudov adına Mahnı Teatrı, həmin ifada.

**1980**

Vokal silsilə, şeirlər T.Nurəli və M.Aslanındır. / Yerevan, 1984, Zaqafqaziya respublikaları gənc bəstəkarla-

rının IV Festivalı. İfaçılar: F.İbrahimova (soprano), müəllif (piano). Uşaq süitası (violino və piano üçün).

1 saylı simfoniya (kamera orkestri üçün). / Bakı, 1981, Zaqafqaziya respublikaları gənc bəstəkarlarının II Festivalı. İfaçılar: Azərbaycan Dövlət Kamera orkestri, dirijor – N.Rzayev. // Moskva, 1982, Azərbaycan kamera musiqisi festivalı, həmin ifada.

**1981**

"Paradeigma" (iki fleyta üçün).

"Azərbaycan" odası (qarışıq xor və piano üçün, Ə.Cəmilin sözlərinə).

"Yaz nəğməsi" (uşaq xoru və piano üçün A.Şaiqin sözlərinə).

"Meditations" (üç alət üçün: fleyta, violonçel, piano). / Tbilisi, 1982, Moskva, Leninqrad, Baltikyanı və Zaqafqaziya respublikaları gənc bəstəkarlarının festivalı. İfaçılar: Azərbaycan Bəstəkarlar İttifaqının triosu. // Nəşr: "Kamera ansamblları üçün pyeslər" məcm, 5-ci cild, M., "Sovetski Kompozitor", 1988.

**1982**

Üç uşaq xoru (müşayiətlə, M.Namazın şeirlərinə).

"Araxçının məndədir" (Azərbaycan xalq mahnısının a cappella qarışıq xoru üçün işləməsi). / Respublika müsabiqəsinin II mükafatı (1982).

**1983**

"Postludio in memoriam Gara Garaev" (orqan üçün). / Qorki, 1983, SSRİ Bİ-nin plenumu. İfaçı: Y.Qabay. // Moskva, 2002 "Muzıka druzey" festivalı. İfaçı: M.Vısotskaya. /// Drezden, 2006. İfaçı: M.Vısotskaya. //// Bakı, 2013, Qara Qarayev adına V Beynəlxalq Festivalı. İfaçı: M.Vısotskaya. ///// CD, Köln. İfaçı: R.İsmaylova. ////// Nəşr: "Azərbaycan Bəstəkarlarının orqan üçün əsərləri", 2-ci cild. Bakı, 2001.

1 saylı Kantata "Həyat oxumaları" (a cappella xoru üçün, royal intermediyaları ilə qədim Azərbaycan mətnlərinə). / Bakı, 1985, Azərbaycan Bəstəkarlar İttifaqının VI qurultayı, ifaçılar: Azərbaycan Xor Cəmiyyətinin Kamera xoru, dirijor – L.Atakişiyeva, piano – müəllif.

**1984**

"Nəsihətlər" – (bas və hazırlanmış piano üçün monoloq, Məhdumqulunun şeirlərinə).

Sonata (solo violino üçün). / Bakı, 1985, Zaqafqaziya gənc bəstəkarlarını V festivalı. İfaçı: Ş.Rəşidov. // Daşkənd, 1987, SSRİ Bİ-nin plenumu, həmin ifada. /// Seattle (ABŞ), 2005, "Qafqaz" Beynəlxalq Kamera Musiqisi Festivalı. İfaçı: M.Şmidt ("Seattle Chamber Players"). //// Nəşr: "Sovet bəstəkarlarının solo violin üçün əsərləri" məcm., 7-ci cild, M., "Sovetski Kompozitor", 1989.

Konsertino-buff (piano və ağac nəfəs alətləri üçün).

"Ayazın birinci dəftəri". / Bakı, 1985, Azərbaycan Bİ-nin Plenumu. // Nəşr: L.Yeqorova, S.Əsgərova "Pianoda çalmaq üçün yeni tədris vəsaiti". Bakı, "İşıq", 1987.

2 saylı simfoniya (BSO və maqnitofon lenti üçün).

**1985**

"Ayazın ikinci dəftəri" (piano üçün).

3 saylı simfoniya "Sülhün səsi" (simli və zərb alətləri, orqan, qiraətçı və qadın xoru üçün, B.Vahabzadənin şeirləri və Azərbaycan xalq mətnlərinə). / Bakı, 1986, Azərbaycan Bİ-nin plenumu. İfacılar: Azərbaycan Dövlət Kamera orkestri, Azərbaycan Xor Cəmiyyətinin Kamera xoru, dirijor – N.Rzayev. // Azərbaycan Gənclər İttifaqı mükafatına layiq görülmüşdür (1990).

**1986**

Sonata (solo faqot üçün). / Nəşr: "Faqot və piano və solo faqot üçün sovet bəstəkarlarının əsərləri", məcm., 5-ci cild, M., "Sovetski Kompozitor", 1990.

2 saylı simli kvartet. / Bakı, 1987. İfaçılar: Azərbaycan Bəstəkarlar İttifaqının simli kvarteti.

2 saylı kantata "Bahar mərasimi" (qarışıq xor, hoboy və zərb alətləri üçün, xalq mətnlərinə). / Bakı, 1989, "Üzü zirvəyə" festivalı. İfaçılar: Azərbaycan Dövlət xor kapellası, O.Əsədov (hoboy), B.Paşkin (zərb alət-

ləri), dirijor – E.Kərimova.  // Şəki, 2012, "İpək Yolu" III Beynəlxalq Festivalı. İfaçılar: AzTV xoru, dirijor – Ş.Ələkbərova. /// Azərbaycan Gənclər İttifaqı mükafatına layiq görülmüşdür (1990).

"Biz Vətəni sevirik!" (uşaq ansamblı üçün: səs, tütək, nağara, piano).

**1989**

İki mahnı: 1. "Sevgi nəğməsi" (B.Vahabzadənin sözlərinə) / AzTV-nin səs yazması, solist – H.Anatollu. 2. "Vaxt var ikən" (R.Rzanın sözlərinə).

"Gültiqin yuğu" (kontralto və zərb alətləri üçün, Orxon abidəsi mətninə).

**1992**

3 saylı kantata "Mərdlik" (a cappella xoru üçün, xalq mətnlərinə).

"Ay işığında" (soprano və piano üçün vokal silsilə, R.Qaracanın şeirlərinə).

"İki qəzəl" (soprano və piano üçün,  Nəsiminin şeirlərinə).

"Munajat – I" (solo kontrabas üçün). / Seul (Cənubi Koreya), 2002, Asiya Bəstəkarları Liqasının XXII Festivalı. // Bakı, 2011, Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonu. İfaçı: C.Cavadzadə. /// Bakı, 2013, Milli İncəsənət Muzeyi (həmin ifada).

**1993**

“Mərasim” (fleyta, alto fleyta, valtorna, zərb alətləri, ud, violonçel, solo bas və kişi vokal ansamblın müşayiəti ilə xoreoqrafik səhnə, Y.Əmrənin mətninə).

Himn (xor və nəfəs alətləri orkestri üçün, R.Heydərin sözlərinə).

**1994**

4 saylı kantata “Rübailər” (a cappella qarışıq xoru və xanəndə üçün, M.Füzulinin şeirlərinə).

Üç vətənpərvərlik mahnısı (R.Heydər və H.Abbasın şeirlərinə).

“Munajat – II” (solo viola üçün).

“Sən olaydın” (bariton və piano üçün qəzəl – monoloq, Ə.Vahidin sözlərinə).

**1995**

“Ninni” (a cappella qarışıq xoru üçün, türk xalq mətnlərinə).

İki romans (soprano və piano ücün, S.Yeseninin şeirlərinə). /Şairin 100 illiyinə həsr olunmuş Respublika müsabiqəsində I mükafat (1995).

**1996**

5 saylı kantata “Düzgülər” (uşaq xoru və piano üçün). / Bakı, 1998, “Qönçə” festivalı. İfaçılar: 35 saylı musiqi məktəbinin xoru.

“Lacrimosa – I” (a cappella qarışıq xoru ücün).

**1997**

"Lacrimosa – II" (qarışıq xor və orqan üçün).

"Şən Bahar" (uşaq operası, A.Axundovanın şeirləri əsasında libretto – müəllifindir). / Bakı, 1998, 2 nömrəli musiqi məktəbi, quruluşun rəhbəri R.Abbasovadır.

"Cantus Lugubris" (xor və arfa üçün, Horatsi Flakkın şeirinə).

"Le Revenant" (kişi xoru və bas-klarnet üçün, Ş.Bodlerin şeirinə).

"Where are you, Ulysses?" (simfonik orkestr üçün).

4 saylı simfoniya "If I could see you again..." (15 ifaçı üçün). / BMT müsabiqəsinin II mükafatı, 1998. // Moskva, 2003, "Moskovskaya Osen" festivalı tərkibində "Qara Qarayev və onun məktəbi" konserti. İfaçılar: "Studiya Novoy Muzıki" ansamblı, dirijor – İ.Dronov. /// Vyana, 2006. İfaçılar: Ensemble Reconsil Wien, dirijor – R.Frayzitser. //// Bakı, 2007, Azərbaycan Bəstəkarlar İttifaqının VIII qurultayı, dirijor – Y.İmanov.

"Şəhriyar qəsidəsi" (uşaq xoru, piano və xalq zərb alətləri üçün). / Bakı, 1999, "Qönçə" festivalı. İfaçılar: 35 nömrəli musiqi məktəbinin xoru. İkinci red. – "Qalx, Anam Azərbaycan", "Vətənpərvərlik mahnıları" Respublika müsabiqəsinin III mükafatı (2000).

**1998**

"Balaca İradə üçün iki yüngül pyes" (fleyta və piano üçün). /UMM repertuarında.

"Munajat – III" (solo marimba üçün). / Yoqyakarta (İndoneziya), 1999, Asiya Bəstəkarları Liqasının XX festivalı. İfaçı: R.Amirudi. // Bakı, 2001, Kappellhaus. İfaçı: U.Məmmədxan. /// "Moskovskaya Osen" festivalı, 2001. İfaçı: M.Pekarski ansamblı. //// Bakı, 2011, Bəstəkarlar İttifaqının konsert salonu. İfaçı: M.Cavadzadə.

"Lacrimosa – III" (a cappella qadın xor üçün).

**1999**

İki uşaq xoru (R.Heydərin şeirlərinə). / Bakı, 2000, "Qönçə" festivalı. İfaçılar: 35 nömrəli musiqi məktəbinin xoru.

"Mən ölüm, sən qal oğlan!" (a cappella qadın xoru üçün, xalq mətnlərinə). / Bakı, 2000, Kamera və orqan musiqisi salonu. İfaçılar: "Atikva" xoru, dirijor – M.Şapiro.

**2000**

"Qönçəyə töhfə" (uşaq xoru, xanəndə və piano üçün, Y.Nəğməkarın sözlərinə. / Bakı, 2000, "Qönçə" festivalı, 2003. İfaçılar: 35 nömrəli musiqi məktəbinin xoru.

**2003**

"Yallı" (8 balaban, tütək və qoşa-nağara üçün). / Bakı, 2010, Azərbaycan Bİ-nin Plenumu. İfaçılar: Dövlət Xalq çalğı alətləri orkestrinin solistləri.

**2005**

"Paradeigma – 2" (fleyta və klarnet üçün).

**2008**

"Where are you, Ulysses?" (simfonik orkestr üçün, yeni versiya). / Bakı, 2008, "25 il Qarayevsiz" festivalı. İfaçılar: Azərbaycan Dövlət Simfonik orkestri, dirijor – F.Kərimov. // Bakı, 2011, Ə.Abbasovun yubiley konserti, həmin ifada. /// Bakı, 2012, Azərbaycan Bəstəkarlar İttifaqının IX qurultayı, həmin ifada. //// Kiyev, 2013, Ukraynada Azərbaycan Musiqisi günləri. İfaçılar: Ukrayna Dövlət Simfonik orkestri, dirijor – F.Kərimov.

Müxtəlif xor və instrumental tərkiblər üçün 100-dən artıq aranjiman. Elmi məqalələr, tədris proqramları və metodik tövsiyələr, mətbuat və mediada çıxışlar.

"Şərq-Qərb" Nəşriyyat Evi

www.eastwest.az
www.fb.com/eastwest.az

| | |
|---|---|
| Buraxılışa məsul | Sevil İsmayılova |
| Dizayner | Gülnar Qurbanova |
| Səhifələyici | Ayaz Abdulzadə |
| Korrektor | Nübar Qarayeva |
| Texniki redaktor | Fəridə Səmədova |
| Baş redaktor | Samirə Bektaşi |
| Texniki direktor | Allahverdi Kərimov |
| Nəşriyyat Evinin direktoru | Rasim Müzəfərli |

Çapa imzalanmışdır: 06.06.2014. Format: 70x100 1/32. Ofset çapı
Fiziki çap vərəqi 1. Sifariş 14150. Tiraj 500

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49